# “Gənc İqlim Çempionları 2023” müsabiqəsi

Dəyişiklik etmək və dünyada və Azərbaycanda iqlim dialoqunun bir hissəsi olmaq istəyirsinizmi?

Böyük Britaniya səfirliyi və IDEA İctimai Birliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə dəstəyi ilə 8-11-ci sinif şagirdlərini “Gənc İqlim Çempionları” müsabiqəsində iştirak etməyə dəvət edir.

Məktəblər öz komandalarını (eyni məktəbdən hər komandada maksimum 5 şagird) formalaşdırmağa və məktəbin və ya yerli icmanın karbon izlərini azaltmağa kömək edəcək layihə təkliflərini təqdim etməyə dəvət olunurlar. Mümkün fəaliyyət istiqamətlərinə maarifləndirmə və təbliğat kampaniyaları, təmizlik aksiyaları və yaşıl texnologiyaların tətbiqi daxil ola bilər. Bütün müraciətlər Seçki Komitəsi tərəfindən nəzərdən keçiriləcək və ən yaradıcı və təsirli layihə təkliflərini irəli sürən komandalar müsahibəyə dəvət olunacaqlar. Müsahibədən uğurla keçən komandalar 2023-cü ilin mart-may aylarında öz ideyalarını həyata keçirmək üçün təşkilatçılardan kiçik qrantlar əldə edə biləcəklər. Qalib komandalara öz layihə təkliflərini həyata keçirməkdə dəstək üçün təşkilatçılar tərəfindən mentorlar təyin olunacaqdır.

## Kimlər müraciət edə bilər

• Azərbaycanın bütün məktəblərindən 8-11-ci sinif şagirdləri

• Yaxşı ünsiyyət və təqdimat bacarığı olan

• Emissiyaları azaltmaq üçün məktəbə və ya icmaya kömək edəcək fəaliyyətləri həyata keçirmək üçün həvəsli və vaxt və əmək sərf etmək istəyi olan

• İqlimlə bağlı işlərlə maraqlanan və iqlim dəyişikliyi ilə mübarizədə həvəsli olan

• Orta səviyyədə ingilis dili biliyinə malik olan

• Mentorlarla onlayn görüşlər üçün noutbuk və etibarlı internet bağlantısı olan

## Necə müraciət etmək olar?

Layihə təkliflərinizi **Young Climate Champions** başlığı ilə generalenquiries.baku@fcdo.gov.uk ünvanına göndərin. Bütün layihələr keçiddəki **şablondan** istifadə etməklə ingilis dilində (iki intervallı, Arial, 12 şrift) təqdim edilməlidir. Şablonda tələb olunan büdcə, fəaliyyət planı və gözlənilən nəticələr aydın əks edilməlidir. Bütün təkliflər 05 fevral 2023-cü il, bazar günü saat 12:00 GMT+4-ə qədər göndərilməlidir. Hər hansı bir sualınız olarsa, **Question: Young Climate Champions** başlığı ilə Nazim Süleymanova nazim.suleymanov@fcdo.gov.uk müraciət edin.